"Euronews" televiziyasının aparıcısı və prodüseri xanım Rebekka Maklaflin-İsthamın moderatorluğu ilə keçirilən forumda Prezident İlham Əliyevin verilən suallara cavabları çoxlu məsələlərə həm aydınlıq gətirdi, həm də yalan informasiya yayanlara bir dərs oldu. Prezidentin giriş nitqində dediyi üç fikir yaranmış yeni reallıqlardan və Azərbaycanın artan rolundan xəbər verirdi. Birincisi, Cənubi Qafqaz regionunda tarixi, geosiyasi dəyişikliklər baş verir, ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib. Bu o deməkdir ki, əvvəllər hökm edənlər artıq sıradan çıxır, Türk Dövlətləri Təşkilatı yeni güc mərkəzi kimi yaranır və digər ölkələrlə uğurlu əməkdaşlıq formaları qurulur. İkincisi, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı Azərbaycan cəmiyyəti olduqca nikbindir, bu, müvəffəqiyyətə nail olmaq üçün əsas amildir. Bilindiyi kimi, nikbinlik öz-özündən yaranmır. Bu nikbinlik onunla bağlıdır ki, Azərbaycan cəmiyyəti uzun illər can atdığı məqsədlərin artıq reallığa çevrildiyini görüb. Üçüncüsü, hər bir ölkədə rahatlıq və təhlükəsizlik vacib amildir. Bu gün Azərbaycan rahat və təhlükəsiz yaşamaq üçün ən etibarlı ölkədir.

## Qonşularla bərabərhüquqlu münasibətlərin davam etdirilməsi

Prezident İlham Əliyev qonşu dövlətlərlə bərabərhüquqlu münasibətləri uğurla davam etdirir. Belə qonşu və dost ölkələrdən biri Gürcüstandır. İrakli Kobaxidzenin Gürcüstanın Baş naziri vəzifəsində ilk xarici səfərini mart ayında Azərbaycana etməsi göstərdi ki, Azərbaycan Gürcüstanın xarici siyasətində ən vacib ölkələrdən biridir. İki dost, qardaş, mehriban qonşular kimi həyata keçirdikləri enerji, nəqliyyat layihələri ilə Avrasiya üçün önəmli ölkələrə çevrilən Azərbaycan və Gürcüstan daim bir-birinin yanındadırlar. Gürcüstan Azərbaycanın Qərbə, Azərbaycan da Gürcüstanın Şərqə açılan qapısıdır. Bu ölkənin müstəqilliyi Azərbaycanın dövlət müstəqilliyi qədər vacibdir.

Azərbaycan Gürcüstanda sabitlik, əmin-amanlıq, təhlükəsizliyin olmasında maraqlıdır. Prezident İlham Əliyev Gürcüstanın ərazi bütövlüyünü birmənalı olaraq belə müdaifə etdi: "Bu gün biz ölkələrimizin ərazi bütövlüyü, suverenliyi ilə bağlı bir daha qarşılıqlı dəstək ifadə etdik və bu gün mətbuat qarşısında mən bunu bir daha demək istəyirəm. Biz bütün dövrlərdə bir-birimizin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını dəstəkləyən açıqlamalar vermişik, müvafiq beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birimizi dəstəkləmişik, bundan sonra da bu dəstək davam edəcək. Heç bir ölkənin suveren ərazisi zor gücü ilə dəyişdirilə bilməz. Beynəlxalq hüququn normaları hər bir ölkə üçün əsas olmalıdır və burada heç bir ayrı-seçkilik ola bilməz. Azərbaycan uzun illər ərzində işğaldan əziyyət çəkmiş, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkə kimi çox yaxşı bilir ki, beynəlxalq hüququn normaları bəzi hallarda güc tətbiq etməklə bərpa olunur. Bu yol da tamamilə qanunidir".

Rusiya ilə bərabərhüquqlu mehriban qonşuluq münasibətlərinin inkişafında maraqlı olan Prezident İlham Əliyevin aprel ayında Moskvada Prezident Vladimir Putinlə təkbətək görüşü tarixi yaddaş baxımından önəmli idi. Görüş Rusiya və bir sıra ölkələr üçün strateji əhəmiyyət daşıyan Baykal-Amur magistralının açılışının 50 illiyinə təngəlirdi. Hələ XX əsrin 20-ci illərinin sonlarından sovet dövləti BAM-ın tikintisinə nə qədər çalışmışdısa, hətta məhkumları bu işə cəlb etmişdisə, on minlərlə insan bu yolda həyatlarını itirmişdilərsə də, nəticə hasil olmamışdı. Bu iş yalnız Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərliyi altında başa çatdırılmışdı.

Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafına mane olan və ya ola biləcək prinsipial amillər (vaxtilə işğalçıya yardım edilməsi, qoşunların ərazimizdə olması və s.) aradan qaldırılıb, onlar işlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə əsasında qururlar.

Prezident Vladimir Putinin avqust ayında Azərbaycana dövlət səfəri, Prezident İlham Əliyevlə görüşü, danışıqlarda müzakirə edilən məsələlər və imzalanan sənədlər qarşılıqlı münasibətlərin yüksək səviyyəsini göstərdi. Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövləti ayırıcı, intriqalar yaradan deyil, birləşdirici, əməkdaşlığa cəlb edən gücdür. Azərbaycan Rusiya ilə mehriban qonşuluq münasibətlərinin daim tərəfdarı olub, bundan ötrü özündən asılı olanları edib. Hazırda şimal qonşu ilə qarşılıqlı müttəfiqlik münasibətləri mövcuddur. Heç bir zaman qonşulara qarşı digər ölkələrin əlində alət olmayan, yalnız milli maraqlara əsaslanan siyasət yürüdən Azərbaycanın Rusiyada, Rusiyanın da Azərbaycanda geniş maraqları vardır. Təcrübə göstərir ki, Cənubi Qafqazda şərait bir çox halda Azərbaycan və Rusiya arasında münasibətlərin səviyyəsindən asılıdır. Birgə mətbuat konfransında Prezident İlham Əliyevin dediyi aşağıdakı fikirlər qarşılıqlı münasibətlərdə keçilən yolu, mövcud vəziyyəti və perspektivləri özündə əks etdirir: "Biz eyni zamanda məhdud formatda keçirilən görüşdə regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Ötən ilin sentyabrından sonra regionda tamamilə yeni şərait yaranıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox halda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır".

## Mədəniyyət yeni hədəflərin xidmətində: Aşıq Ələsgərin abidəsinin açılışı

Dövlətimizin bir indiki coğrafi-siyasi sərhədləri var, bir də tarixi torpaqlarımız. Vaxtilə vəhşicəsinə deportasiya olunan azərbaycanlıların tarixi torpaqlarına - Qərbi Azərbaycana dinc qayıdışını yeni mərhələdə milli hədəf kimi müəyyənləşdirən Prezident İlham Əliyevin bir sıra fəaliyyətləri örnəkdir. Xankəndidə bayrağımızı ucaltmaqla dövlət başçısı millətdə bütün tarixi torpaqlarımıza qayıtmağa inam hissi yaradıb və bu ideyanın müəllifidir. Uzun illər boyu ərazimizdə oynanılan "futbol topu" müstəqillik tarixində ilk dəfə olaraq coğrafi-siyasi sərhədlərimizdən kənara çıxarılaraq tarixi torpaqlarımıza - konkret olaraq Qərbi Azərbaycana atılıb. Yeni şəraitdə bütün azərbaycanlıların vahid amal, milli hədəf uğrunda birləşməsinin düsturunu Aşıq Ələsgərin abidəsinin açılışı mərasimindəki nitqində Prezident İlham Əliyev aşağıdakı kimi ifadə etdi: "Bu gün qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq ilk növbədə Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq eyni zamanda bu abidə bütün qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək, biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Bu, sadəcə abidə açılışı deyil, müəyyənləşdirilmiş hədəfə çatmaqda vasitələrdən biri idi. Xalqımızın XX əsrdə üç deportasiya dalğasına məruz qaldığını söyləyən dövlət başçısı dedi: "1918-ci ildə birinci, 1940-1950-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar".

## Zəfər parkı

Prezident İlham Əliyevin tarixi xidmətlərindən biri millətdəki məğlubiyyət psixologiyasını aradan qaldırması, qalibiyyət hissini aşılaması, başını dik tutaraq gəzməsi düsturunu verməsidir. Qalibiyyət duyğusunu gələcək nəsillərə ötürmək üçün tariximizdə ilk dəfə olaraq Bakıda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, oğulları Heydər Əliyevin iştirakı ilə noyabrın 8-də Zəfər parkı açıldı. Açılış mərasimində etdiyi nitqində dövlət başçısı 44 günlük Vətən müharibəsini Azərbaycan millətinin şanlı tarixi kimi qiymətləndirərək həm Birinci Qarabağ, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatının şəhidlərinin qanının döyüş meydanında alındığını, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edildiyini vurğuladı. Torpaqlar uzun illər işğal altında olsa da, Azərbaycan xalqı və rəhbərliyi bununla heç vaxt barışmamış, mövqeyindən geri çəkilməmişdi. 2003-cü ildə İlham Əliyev ilk dəfə Prezident vəzifəsinə seçiləndə verdiyi vədi yerinə yetirmişdi. Çıxışında tövsiyə etdi ki, Azərbaycan milləti, gələcək nəsillər bu tarixi bilməli, Ermənistanın törətdiklərini heç bir zaman unutmamalıdırlar. Şanlı qələbəni öz qanı və gücü ilə qazanan Azərbaycan milləti və dövləti müzəffər kimi yaşayacaqdır. Qazanılan qələbə təkcə Ermənistan, dünya erməniliyi deyil, onların arxasında dayananların da üzərində olduğundan onlar bunu bağışlaya bilmir, çirkin kampaniya aparırlar.

## Boykot çağırışları iflasa uğradı: dünya birləşdirici güc olan Bakıya toplaşdı

Bununla bağlı iyrənc kampaniya Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və keçirildiyi günlərdə özünü göstərdi. Liderlər Sammitinin açılış mərasimində Prezident İlham Əliyevin tarixi əhəmiyyət daşıyan nitqi özündə bir sıra vacib məsələləri ehtiva etdi. 200 ölkənin yekdil rəyi ilə Azərbaycanın COP29-a evsahibliyi etməsi barədə qərarın qəbul edilməsi Prezident İlham Əliyevə olan hörmət, ehtiram, inam və Azərbaycan dövlətinin beynəlxalq aləmdə oynadığı rolu təsdiqləyirdi.

Azərbaycan gerçəklərini bütün dünyaya çatdıran Prezident Şimal ilə Cənubun, Qərb ilə Şərqin qovuşduğu yerdə yerləşən Azərbaycanın müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticarət və nəqliyyat körpüləri qura bilmək imkanlarını təqdim etdi. Bildirdi ki, Azərbaycanın başladığı böyük layihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib, məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib. İştirakçılara çatdırılan digər bir gerçəklik Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və 1 milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bilməsi barədə idi. Təqdim edilən başqa bir gerçəklik birləşdirici güc olan Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forumu təşkil etməsi barədə idi. Azərbaycan xalqının etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşaması bəzi dövlətlər üçün nümunədir. Digər bir gerçəklik təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olan Azərbaycanın iqlim dəyişmələri məsələsində də əməkdaşlıqda imkanları ilə bağlı idi. İqlim dəyişmələri məsələsində fərqli iştirakçılar arasında körpülərin salınmasında Azərbaycanın faydalı və yardımçı ola bilmək imkanları və çoxtərəfliliyə tərəfdar olduğu bəyan edildi. Azərbaycan ərazisinin demək olar ki, dörddəbir hissəsini təşkil edən Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları "yaşıl enerji" zonaları elan olunub. Bu isə o deməkdir ki, dünya Azərbaycanın "yaşıl gündəliy"indən öyrənə bilər.

Bəzilərinin yanlış olaraq Azərbaycanı neft ölkəsi adlandıraraq ətraf mühitin çirklənməsinin günahını onda axtarmağa cəhd edənləri, böhtan atan dairələri fakt və materialların əsasında alt-üst edən Prezident İlham Əliyev bildirdi ki, dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılıb. XIX əsrdə dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Həmin əsrdə bəzi Qərb siyasətçiləri və media Azərbaycanı neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin indi Azərbaycanın neft dövləti adlandırılması ədalətsizlikdir, yalnız siyasi mədəniyyətin və biliklərin çatışmamasından xəbər verir. Dünyada birnömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediasının Azərbaycanı neft dövləti adlandırması riyakarlıqdır. Dövlət başçısının nitqində söylədiyi bu sözlər belələrinin üzünə tərs şillə kimi dəydi: "Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir".

Dövlət başçısı bildirdi ki, ölkələrə qiymət verərkən Allahın verdiyi təbii sərvətlər - neft, qaz, külək, günəş, qızıl, gümüş və mis deyil, işsizliyin, yoxsulluğun səviyyəsi, xarici borclar meyarlar kimi götürülməli, ölkələr təbii sərvətlərin olmasına görə günahlandırılmamalı, tələbatın olması səbəbindən bazara çıxardıqlarına görə təqsirləndirilməməlidirlər, çünki onlar insanlara lazımdır.

Həmin dairələrin COP29-u boykot çağırışları iflasa uğramışdı. Nitqinin sonunda Prezident İlham Əliyev dediyi aşağıdakı sözlərlə belələrinin siyasətini ayaqlar altına atdı: "Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"

## Əzilən xalqların ümid yeri və haqq-ədalət rəmzi

Prezident İlham Əliyev dünyada yeni müstəmləkəçilik metodlarından əziyyət çəkən xalqların ümid yeri və haqq-ədalət rəmzidir. Aprel ayında Prezident İlham Əliyev Konqo Prezidenti ilə keçirilən mətbuat konfransında Qoşulmama Hərəkatına sədrliyi illərində Azərbaycanın təşəbbüsü ilə Bakıda yaradılmış Təşəbbüs Qrupunun başlıca məqsədinin yeni müstəmləkəçilik metodlarına qarşı mübarizə aparmaq olacağını söylədi. Yeni müstəmləkəçilik siyasəti yürütmüş və onu müxtəlif formalarla davam etdirən BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri, işğalçı Ermənistanın "böyük bacısı", nüvə dövləti olan Fransadır.

Mövqeyini Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində bir daha bəyan edən Prezident İlham Əliyev onların yanında olduğunu, beynəlxalq aləmdə haqq səslərinin eşidilməsinin vacibliyini bildirdi. Bu o demək idi ki, ölkələrin ərazisinin kiçikliyi, əhalisinin sayının azlığı onların səsinin boğulması olmamalıdır. Azərbaycan kiçik ada dövlətlərinə yardım etməklə bir çox ölkəyə nümunədir. İşğaldan azad edilmiş ərazilərini təkbaşına bərpa etməsinə baxmayaraq, Azərbaycan bir neçə ölkəyə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaqdan ötrü yardım göstərib, su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək verib, onlar üçün kadrlar hazırlayıb. 10-dan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramından yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə Azərbaycan Respublikası 80-dən çox ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Özünün ehtiyacı olmasına baxmayaraq, Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırması Prezident İlham Əliyevin rəhbərliyində Azərbaycan dövlətinin böyüklüyüdür.

Dövlət başçısı nitqində beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq neokolonializmin iqlim dəyişmələrinə təsiri məsələsini dünya siyasətinin gündəliyinə gətirdi. Neokolonializm siyasətinin başında gələn Fransa və Niderland kimi ölkələrin dəniz ərazilərinin əhalisinin səsi metropoliyalardakı rejimlər tərəfindən susdurulması müasir dünya üçün utancdır. Fransanın bu əraziləri nüvə silahlarının sınağı meydanına çevirməsi nəticəsində torpaq və suyun zəhərlənməsi və radiasiyanın səviyyəsinin artması həm ətraf mühitə, həm də insanlığa qarşı ağır cinayətdir.

*Yeni müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqlar Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövlətinə dayaq kimi baxırlar.*

*Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də andiçmə mərasimində etdiyi nitqindən sonra keçilən yolun bəzi səhifələrinə diqqət yetirilməsi göstərir ki, dövlət başçısı söylədiklərini ardıcıl olaraq həyata keçirir. O, zamanın seçdiyi, lakin zamandan uca olan liderdir. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Prezident İlham Əliyev haqqında söylədikləri aşağıdakı sözlər bu fikrin dəqiq təsbitidir: "Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız".*

*Tarixən belə olub: bilənlər, bacaranlar, böyük dövlət adamları millətlərinin qarşısında dayanan problemi həll edib, inkişafı üçün yeni üfüqlər açıblar. Az bilənlər özlərini çoxbilmiş kimi göstərib təkliflər veriblər. Bilməyənlər daim tənqid ediblər. Heç bir şeyi bacarmayanlar, əllərindən heç bir iş gəlməyənlər isə bilənlərə, bacaranlara, böyük dövlət adamlarına böhtan, şər, çamur atmaqla, qara yaxmaqla məşğul olublar, amma heç bir zaman istəklərinə çatmayıblar. Belələrinin üzünə bütün qapıları bərk bağlayan Azərbaycan milləti xəyallarını gerçəkləşdirən, üstündəki ləkəni silən, yüzilliklərin problemini kökündən kəsib atan, başını uca edən və gələcək yolunu göstərən Prezident İlham Əliyevin ardınca gedir. Doğru yol budur! Zamanın yetişdirdiyi, lakin zamandan uca olanlar dahi olurlar.*

***Musa QASIMLI,***
***Milli Məclis Sədrinin müavini***

# Azərbaycan ən şərəfli dövrünü yaşayır

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində ölkəmiz böyük inkişaf yolu keçib. Bu, hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib.**

**Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb.**



Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Bütövlükdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 il ərzində qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması regionda yeni reallıqlar yaradıb. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli dövrünü yaşayır. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb.

Ümumiyyətlə, ötən dövrdə xarici siyasət sahəsində möhtəşəm nailiyyətlərə imza atıldı. Prezidentin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bundan əlavə, neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Artıq bu layihələr reallığa çevrilib. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan dövlətə çevrildi.

Prezident İlham Əliyevin siyasətinin ən böyük uğurlarından biri bu ilin noyabrında Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi oldu. Belə mötəbər tədbirə evsahibliyi hüququnun Azərbaycana verilməsi təsadüfi deyil. İndiki dönəmdə hansısa ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar. Eyni zamanda dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. 11-23 noyabr tarixlərdə keçirilən bu mötəbər tədbirdə qlobal iqlim dəyişiklikləri ilə bağlı mübarizə üçün mühüm qərarlar qəbul olundu. Azərbaycan vətəndaşları olaraq 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq!

Artıq torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilib. Dövlətimizin şanlı qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Belə ki, son 21 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdur. Təbii ki, bu məsələdə dövlət başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən dövrdə atılan davamlı addımlarla bağlıdır. Yəni Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində məqsədyönlü iş aparıb. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Hazırda Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün danışıqlar davam edir. Sülh prosesi ilə bağlı dövlətimizin mövqeyi bəllidir. Ermənistan anlamalıdır ki, onun başqa alternativi yoxdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri bundan sonrakı mərhələdə daha da möhkəmlənəcək. Əminik ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bütün sahələrdə daha möhtəşəm, əzəmətli nailiyyətlər qazanacaq. Artıq ölkəmiz regionda yeni reallıqlar yaradıb və bu reallıqların praktiki mərhələyə keçməsi üçün əməli addımlar atır. Yeni reallıqlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha böyük, möhtəşəm nailiyyətlər əldə etməsinə hədəflənib. Xalqımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni zəfərlər qazanacağı şübhəsizdir!

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin deputatı***



# Mükəmməl dövlət idarəçiliyi və misilsiz sərkərdəliyi ilə nümunə olan Lider

**Son illər ölkəmiz siyasi, iqtisadi, hərbi və digər sahələrdə ardıcıl uğurlara imza ataraq qlobal miqyasda nüfuzlu bir dövlətə çevrilməkdədir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə davam etdirilən daxili və xarici siyasət kursu dövlətimizin dinamik və hərtərəfli inkişaf yolunda inamla irəliləməsinə zəmin yaradıb. Ölkəmizi böyük qələbəyə aparan güclü və sarsılmaz dövlətçilik konsepsiyası dövlət-xalq birliyi nəticəsində dayanıqlı inkişaf modelinin təşəkkül tapmasına imkan verib.**



Məhz Prezident İlham Əliyevin mükəmməl dövlət idarəçiliyi, uğurlu daxili və xarici siyasət kursu sayəsində ölkə iqtisadiyyatının ilbəil artmasına, əhalinin maddi rifah halının davamlı şəkildə yüksəlməsinə, dövlətimizin beynəlxalq miqyasda etibarlı və güclü tərəfdaş kimi qəbuluna şahidlik edirik.

Qlobal miqyasda nüfuzlu və praqmatik siyasətçi olan dövlət başçımız regionda və dünyada baş verən prosesləri düzgün və uzaqgörənliklə qiymətləndirərək bölgədə yeni reallıqlar yaratmağa nail olub. Prezident İlham Əliyev müasir dövrün yeni lideri, müdrik dövlət xadimi, mahir diplomat kimi qloballaşan dünyamızda mürəkkəb geosiyasi mübarizə şəraitində ölkəmizin qarşısında duran strateji hədəflərə çatmaq üçün heyrətamiz əzmkarlıq, sarsılmaz iradə nümayiş etdirir.

Tariximizə qızıl hərflərlə yazılan şanlı qəhrəmanlıq səhifəsi vətənini sevən hər bir azərbaycanlının qəlbində hədsiz qürur və iftixar hissi doğurur. Otuz ilə yaxın erməni işğalı altında qalmış torpaqlarımız Prezident İlham Əliyevin mükəmməl sərkərdəliyi, şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin misilsiz şücaəti sayəsində azad olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Qazanılmış möhtəşəm Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi həkk olundu və şanlı üçrəngli bayrağımız bu gün Qarabağda, Şərqi Zəngəzurda qürurla dalğalanır.

Bu ilin ən yaddaqalan siyasi hadisələri ölkəmizdə keçirilən prezident və parlament seçkiləri olub. Torpaqlarımız işğaldan azad olunduqdan sonra ilk dəfə olaraq bütün ərazilərimizdə keçirilən prezident seçkilərində Prezident İlham Əliyevin inamlı qələbəsi xalqımızın öz Liderinə dərin inam və sevgisinin növbəti sübutu oldu. Seçkilərin nəticələri istər Azərbaycan xalqının, istərsə də dünya ictimaiyyətinin Liderimizə inamı, qlobal miqyasda nüfuzlu dövlət xadimi olmasını bir daha təsdiqlədi. Aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları təbrik məktublarında yer alan səmimi ifadələr məhz bunun nümayişi idi. Həmçinin Azərbaycanın müstəqillik tarixində ilk dəfə ölkəmizin bütün ərazisində keçirilən VII çağırış Milli Məclisə növbədənkənar seçkilər də tarixi əhəmiyyət daşıyan mühüm siyasi hadisə olaraq qeyd edilməlidir.

Demokratik və hüquqi dövlət quruculuğu prosesində önəmli uğurlara imza atan Azərbaycan reallaşdırdığı sistemli islahatlar nəticəsində hazırda regional və qlobal layihələrdə aparıcı rol oynayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə nüfuzlu beynəlxalq təşkilatlarla və dövlətlərlə milli maraqlara əsaslanan səmərəli əməkdaşlıq quran ölkəmiz BMT-dən sonra dünyada ikinci beynəlxalq platforma olan Qoşulmama Hərəkatına sədrliyi dövründə Qlobal Cənubla Qlobal Şimal arasında etibarlı körpü rolunda çıxış edib. Bununla inkişaf etməkdə olan və zəif inkişaf edən dövlətlərin dünya miqyasında səsinin eşidilməsində əhəmiyyətli rol oynayıb. COVID-19 pandemiyası dövründə dövlətimiz Qoşulmama Hərəkatının sədri qismində pandemiyanın təsirinin azaldılması üçün həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə bir sıra vacib təşəbbüslərlə çıxış edib. Belə ki, qısa müddətdə yeni, müasir tibbi avadanlıqlarla təchiz edilmiş modul tipli xəstəxanalar tikilib, tibb işçilərinin sosial müdafiəsi üçün əlavə maliyyə yardımları ayrılıb, vaksinlərin erkən əldə edilməsi üçün beynəlxalq sazişlər imzalanıb və əhali arasında genişmiqyaslı vaksinasiya kampaniyası həyata keçirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı çərçivəsində pandemiyaya qarşı birgə mübarizə təşviq edilib və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasında dünya liderləri bir araya gətirilib. Nəticədə pandemiyaya qarşı qlobal həmrəylik gücləndirilib. Ölkəmiz 30-dan çox ölkəyə tibbi ləvazimat, o cümlədən qoruyucu vasitələr və vaksinlər bağışlayıb.

Dövlət başçımızın pandemiya dövründə liderliyi sayəsində digər dövlətlərdə müşahidə edilən səhiyyə böhranı baş vermədi, əksinə, həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində qısa müddətdə pandemiyanın qarşısını almaq mümkün oldu.

Azərbaycan hazırda qardaş türk dövlətləri ilə uğurlu əməkdaşlığı davam etdirir və Prezident İlham Əliyevin yeni dövrdə ölkəmizin xarici siyasət kursunun əsas prioritetlərindən biri kimi türkdilli dövlətlərlə inteqrasiyanın dərinləşdirilməsinin zəruriliyini önə çəkməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı andiçmə mərasimindəki nitqində *"Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik"* deyə vurğulayıb.

Azərbaycan həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Eyni zamanda Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib.

Ölkəmiz çoxtərəfliliyin tərəfdarı olmaqla mədəniyyətlərarası dialoqda da fəal rol oynamaqdadır. BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edilir və multikulturalizm dövlət siyasətimizə, həyat tərzimizə çevrilib.

Azərbaycan Prezidentinin balanslı və çevik xarici siyasət kursu çərçivəsində dövlətimizin davamlı şəkildə həyata keçirdiyi uğurlu enerji diplomatiyası nəticəsində TANAP və TAP kimi qlobal əhəmiyyətli enerji layihələri reallaşıb.

Ümumi evimiz olan Yer kürəsində iqlim dəyişikliyinin əsas çağırışlardan birinə çevrildiyi bir dönəmdə ölkəmizin milli prioritetləri sırasında "yaşıl gündəliy"in yer alması və 2023-cü ilin dekabr ayında 200-dək ölkənin yekdil qərarı ilə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına bu il uğurlu evsahibliyi etməsi dövlətimizin qlobal problemlərin həllində mühüm aktorlardan birinə çevrildiyini bir daha nümayiş etdirdi. Beynəlxalq miqyasda ən mötəbər tədbirlərdən biri olan COP29-un Azərbaycanda keçirilməsi, eyni zamanda tədbirdə 196 ölkəni təmsil edən 76 min iştirakçının qeydiyyatdan keçməsi və 80 prezident, vitse-prezident və baş nazirin sammitdə iştirak etməsi müdrik Liderimizin rəhbərliyi ilə ölkəmizin beynəlxalq müstəvidəki növbəti böyük siyasi qələbəsi, nəhəng diplomatik uğuru oldu. Sessiyanın yekununda qəbul edilən qərarlar - Bakı Maliyyə Məqsədi, Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsi, İtki və Zərər Fondunun institutlaşdırılmasının yekunlaşması, Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması və digər vacib nəticələr bəşəriyyətin gələcəyi üçün müstəsna əhəmiyyət daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu, bu kimi nəhəng tədbirlərin keçirilməsində yüksək təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi.

Prezidentimizin müdrik rəhbərliyi ilə dövlətimizin iqtisadi qüdrətinin ildən-ilə artması bütün sahələrin tərəqqisinə müsbət təsir göstərməkdədir. Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiya"ların tətbiqinin genişləndirilməsi kimi məsələlər hədəf olaraq müəyyən edilib. Dövlət başçımız Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və bu ərazilərin 2050-ci ilədək "sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub. "Yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli hazırda Prezident İlham Əliyevin enerji siyasətinin prioritetidir. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Bu sahədə həyata keçirilən layihələr Azərbaycanda gələcək iqtisadi inkişafın ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində işlərin artırılması ilə sıx bağlı olacağını deməyə əsas verir. Milli Prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin ediləcək.

Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla da ədaləti bərpa etmiş və beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərini təmin etmiş qalib dövlət olan Azərbaycan eyni zamanda vətəndaşlarının sosial rifahının yüksəldilməsi istiqamətində mühüm irəliləyişlərə yol açan səmərəli sosial siyasət yürüdür. Həyata keçirilən sosial siyasət hər bir vətəndaşın həyat səviyyəsinin yüksəlməsinə, Azərbaycanın sosial dövlət kimi mövqeyinin möhkəmlənməsinə xidmət edir. Dövlət başçısının qeyd etdiyi kimi, *"Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".*

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"na uyğun olaraq həmin sistemin yeni çağırışlara uyğun təkmilləşdirilməsi, layiqli pensiya təminatı sisteminin qurulması istiqamətində mühüm addımlar atılıb. Dövlət başçısı tərəfindən hər il müvafiq sərəncamlar imzalanmaqla minimum pensiyaların mütəmadi artırılması, hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması təmin olunub. Ümumilikdə ötən 20 ildə minimum pensiya 14 dəfə artaraq 280 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya isə 19 dəfə artaraq 408 manata çatıb. Pensiya üzrə ödənilən illik vəsaitlərin məbləği isə 30 dəfədən çox artaraq 5 milyard 907 milyon manata çatıb. Təkcə son bir ildə pensiyalar üzrə ödənişlərə ayrılan illik vəsaitdə 1 milyard manata yaxın, son beş ildə isə 2,4 milyard manat (70 faiz) artım olub.

Prezident İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar ötən 20 il ərzində 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Ümumilikdə 4 milyondan çox vətəndaşı əhatə edən sosial islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7 milyard manata yaxındır. Bu islahatlar nəticəsində 2018-2023-cü illərdə ölkəmizdə minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq pensiya 2,1 dəfə, yaşa görə orta aylıq pensiya 2 dəfə, orta aylıq əməkhaqqı 70 faiz, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə, median əməkhaqqı 2,1 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, işsizliyə görə sığorta ödənişlərinin orta aylıq məbləği 52 faiz artıb. Prezidentimizin imzaladığı sənədlərlə son beş ildə daha 10 yeni sosial ödəniş növü - müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və sairə təsis olunub. Həmçinin son illər müvafiq qanunvericilikdə humanist yanaşmalar tətbiq edilib: 2019-cu ilin əvvəlindən əmək pensiyası yaşına çatan və fərdi hesabında hətta ən kiçik məbləğdə pensiya kapitalı olanlara avtomatik pensiya hüququ verilib, yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirilib, 2022-ci ildə qanuna 50-dək əlavə və dəyişiklik edilməklə, erkən pensiya hüququ olan kateqoriyaların sırası genişləndirilib, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən əmək sahələri sırasına yeni 59 vəzifə, peşə əlavə edilib. Aztəminatlı ailələrin maddi vəziyyətinə mühüm dövlət dəstəyi olan ünvanlı dövlət sosial yardımı sistemi elektronlaşdırılıb, habelə qanunvericilikdə bir sıra dəyişikliklər edilərək, bu proqramın əhatə dairəsi genişləndirilməklə proqrama əlçatanlıq artırılıb, sosial yardımın təyinat şərtləri xeyli yumşaldılıb. Hər ailəyə ödənilən ünvanlı sosial yardımın orta aylıq məbləği 2006-cı ilə nisbətən ötən müddətdə 11 dəfə artırılaraq 478 manata çatıb. Bununla yanaşı, artıq 2023-cü ildən ölkəmizdə ilk dəfə olaraq ehtiyac meyarının həcmi ilə yaşayış minimumunun həcmi bərabərləşdirilib ki, bu da ehtiyac meyarı həddinin yaşayış minimumu səviyyəsinə yüksəldilməsi hədəfinə nail olunduğunu göstərir.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən gənclər siyasəti, xüsusilə təhsil, mədəniyyət, idman və innovasiyaların təşviqi sahəsində atılan addımlar gənclərimizin gələcək inkişafı üçün geniş imkanlar yaradır. Son illər ərzində gənclərin təhsilini dəstəkləyən proqramlar, dövlət tərəfindən verilən təqaüdlər, beynəlxalq mübadilə imkanları və startap təşəbbüslərinin dəstəklənməsi kimi layihələr böyük əks-səda doğurur. Bu layihələr təkcə gənclərin şəxsi inkişafına deyil, eyni zamanda ölkəmizin ümumi inkişafına mühüm töhfə verir.

Azərbaycan Respublikasının Prezidenti milyonlarla insanın taleyində müstəsna rol oynayan müdrik dövlət xadimi, müzəffər sərkərdə, böyük strateq və lider kimi adını Azərbaycan tarixinə qızıl hərflərlə həkk edib. Bu gün mükəmməl dövlət idarəçiliyi, misilsiz səkərdəliyi və son dərəcə uğurlu xarici siyasət kursu ilə dünya miqyasında nümunə olan Prezidentimizin müdrik rəhbərliyi altında intibah və çiçəklənmə dövrünü yaşayan Azərbaycan Respublikasının vətəndaşı olmaq hədsiz qürurvericidir.

**Zaur ŞÜKÜROV,**
***Milli Məclisin deputatı***



# Xalqın vahidliyini təcəssüm etdirən Lider

**Qütblərarası ziddiyyətlərin dərinləşdiyi bir məqamda Cənubi Qafqaz kimi bir coğrafiyada suveren davranmaq mümkünsüz qədər çətin məsələdir. Hazırda faktiki olaraq bir çox dövlət üçün mövcudiyyət və fəaliyyət qrafiki həmin ölkələrin paytaxtlarından çox kənarda, hətta sərhədlərindən çox uzaqda cızılır. Nəticədə bir çox beynəlxalq subyekt daxili və xarici siyasətini imperialist mərkəzlərdən gələn tezislər əsasında quraraq "demokratiya və insan haqları" oyunlarının iştirakçısı kimi çıxış etməkdədir.**

**Ötən dövr ərzində bölgə ilə, ümumiyyətlə, əlaqəsi olmayan beynəlxalq subyektlərin Azərbaycan əleyhinə fəaliyyətləri də məhz bu çərçivədə şərh oluna bilər. Lakin danılmaz bir reallıq var ki, bu hücumlar nəinki bizi çətin duruma salmamış, əksinə, cənab İlham Əliyev bu təcavüzkar cəhdləri bütün platformalarda fiaskoya uğratmışdır.**

Azərbaycan Respublikası beynəlxalq aləmdə gedən inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlıdır. Konstitusiyamızın 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Eyni zamanda tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyinin təmin olunması Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının vacib elementlərindən biridir. Lakin beynəlxalq münasibətlərdə dövlətin xarici siyasi asılılığa düşməsi onun milli maraqlarının təmin olunmasına təhdid yarada bilən amillərdən olduğu üçün xarici siyasət xüsusi peşəkarlıq tələb etməklə özfəaliyyətə yol verilməyən, həssas spesifik sferadır. Suveren dövlət kimi xarici siyasət vasitələrindən istifadə edərək ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş tədbirlərini təhlil etdikdə Azərbaycanın, xüsusən cənab İlham Əliyevin prezidentliyi dövründə xarici siyasət kursunu, sözün əsl mənasında, uğur hekayəsi hesab etmək olar.

Möhtərəm Prezidentin xarici siyasətinin təməlində bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsi dayanıb. Lakin tam siyasi və iqtisadi müstəqillik əldə etmədən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilmək mümkün deyildi. Ulu Öndər Azərbaycanı siyasi cəhətdən müstəqil beynəlxalq subyektə çevirsə də, iqtisadi imkanların məhdud olması 2000-ci illərin əvvəllərində hələ də xarici siyasət kursu özü diplomatiya dühası olan Ümummilli Liderin gözləntilərinə uyğun deyildi. Peşəkar diplomat olan cənab İlham Əliyev Prezident seçildikdə bu reallığın fərqində idi və diplomatik müstəvidə güc amilinin mahiyyətini gözəl anlayırdı. Beləliklə, həyata keçirilən ardıcıl, şaxələndirilmiş fəaliyyət Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunması ilə nəticələndi. Xüsusən cənab İlham Əliyevin neft-qaz amilini milli mənafeləri ehtiva edən kapitala, habelə tarixboyu bizim üçün probleme çevrilmiş strateji coğrafi mövqeyimizi isə dividendə çevirməsi xarici siyasətimiz üçün inanılmaz imkanlar açdı. Siyasət kursunun isə işinin peşəkarı tərəfindən həyata keçirilməsi prosesin faydalılıq əmsalını qat-qat artırdı. Nəticədə 2011-ci ildə zamanında bizə laqeyd münasibət bəslənən BMT-də Azərbaycan 155 ölkənin səsini qazanaraq Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Kifayət qədər həssas dönəmə təsadüf edən üzvlük dövründə cənab İlham Əliyev bir daha özünün qlobal miqyası ilə dünyanın birnömrəli beynəlxalq təşkilatının ən ali qurumunda dünyanın əsas oyunçuları ilə bir səviyyədə proseslərə təsir göstərmə iradəsini nümayiş etdirə və milli maraqlarımızın təmin olunmasını həyata keçirə bildi. Təsadüfi deyil ki, dünyanın ikinci böyük təsisatı - Qoşulmama Hərəkatına rəhbərlik üçün Bakının namizədliyi nəzərdən keçirilərkən məhz İlham Əliyev amilinə görə Azərbaycanın Hərəkata uğurlu rəhbərlik edə biləcəyi heç kimdə şübhə doğurmadı. Beləliklə, 2019-cu ildən etibarən Azərbaycan digər üzv ölkələrin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçildi. Bu, Azərbaycanın xarici siyasəti üçün önəmli uğur idi, amma eyni zamanda Qoşulmama Hərəkatının tarixində də dönüş nöqtəsi oldu. Yarandığı gündən ətalətdə qalan təsisat məhz cənab İlham Əliyevin sədrliyi dövründə aktiv qlobal subyektə çevrildi. Hətta bir sıra qlobalmiqyaslı proseslərdə BMT-dən daha effektiv, daha təsirli və daha nəticəyönümlü iş əmsalı ortaya qoya bildi. Təsadüfi deyil ki, xüsusən pandemiya ilə mübarizədə qlobal səylər məhz cənab İlham Əliyevin rəhbərliyi altında, Qoşulmama Hərəkatı çərçivəsində birləşdirildi. Dünyanın qəbuledilən güc mərkəzlərinin peyvənd milliyyətçiliyi fonunda prosesdə mərkəzdənqaçma və avantürist yanaşmalar ilə mübarizəsində məhz cənab İlham Əliyev cəsarətlə mübarizə apardı və BMT İnsan Haqları Şurası prosesə münasibət bildirməli oldu. Bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsinə dair qətnamələr qəbul edildi.



Eyni zamanda pandemiya sonrası dünya düzəni məsələsi məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının mövzusu oldu. Göründüyü kimi, Qoşulmama Hərəkatına məhz cənab İlham Əliyevin rəhbərliyi altında daha çox təşkilat kimi davranılması təsisatın artıq statusunun dəyişilməsi zərurətini meydana çıxardı. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Parlament və Gənclər Şəbəkəsini formalaşdırmaqla prosesdə ilk addımları atdı. Beləliklə, Qoşulmama Hərəkatı məhz cənab İlham Əliyevin sədrliyi dönəmində özünün qızıl dövrünə qədəm qoydu. Təsadüfi deyil ki, Hərəkatın beynəlxalq aləmdə nüfuzunun artması və səmərəli fəaliyyəti ölkəmizin sədrliyinin daha bir il uzadılması ilə nəticələndi.

Dövlət başçısının Azərbaycanın xarici siyasət kursunda şah əsərlərindən biri də, heç şübhəsiz ki, beynəlxalq ictimaiyyətin Azərbaycana ehtiram olaraq və "yaşıl enerji" sahəsindəki fəaliyyət başda olmaqla, görülən işlərə əsaslanaraq COP29-a evsahibliyini ölkəmizə həvalə etməsi idi. Ötən ay Bakıda baş tutmuş COP29-un uğurlu nəticələri birmənalı formada deməyə əsas verir ki, Azərbaycan cənab İlham Əliyevin rəhbərliyində, əslində, iqlim dəyişiklikləri ilə mübarizədə yeni səhifə açdı. Çünki məhz Azərbaycanın sədrliyi və yorulmaz səyləri ilə əldə olunan həllyönümlü nəticələr baxımından COP29, İlham Əliyevin dediyi kimi, "ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək".

Prezident İlham Əliyevin Azərbaycanın prioritetlərindən biri kimi türk dünyası ilə münasibətlərin dərinləşdirilməsini müəyyən etməsi də xarici siyasət kursumuzun mühüm uğurlarındandır və ciddi tarixi nəticələrə yol açmaqdadır. Nəticədə ötən dövr ərzində biz Türk Dövlətləri Təşkilatının güclənməsi və nüfuzunun artmasının şahidiyik və prosesdə İlham Əliyev şəxsiyyətinin rolu danılmaz formada görünməkdədir. Məhz cənab İlham Əliyev tarix və mədəniyyət sahələrində zəngin müştərək irs, eyni dil və din amillərini münasibətlərimizin uğurlu inkişafında səmərəli alətə çevirməklə türk tarixində yeni dövr başlatdı. Türkiyə və Azərbaycan münasibətləri Şuşa Bəyannaməsinə qədər yüksəldi, o cümlədən Mərkəzi və Orta Asiya dövlətləri ilə də münasibətlər qarşılıqlı olaraq xarici siyasət kursunda prioritetlərə çevrildi.

Xarici şirkətlər özlərinə sərf edən şərtlərin qəbul edilməməsinin ardınca daha ağır arqument ortaya qoymuşdular - Xəzərin hüquqi statusu öz həllini tapmayanadək onlar danışıqlarda iştirak etməyəcəklər. Bu, az qala "Əsrin müqaviləsi"nin fiasko ilə bitəcəyi demək idi. Eyni zamanda Azərbaycanın gələcək inkişafının mühərriki olan neft sıçrayışının qarşısının tamamilə bağlanması sayıla bilərdi. Bu danışıqlar iqtisadi savaş və sanki ölüm-dirim mübarizəsi idi. Azərbaycanı layiqincə təmsil edən İlham Əliyev qarşısına konkret prinsipial məqsəd qoymuşdu: *"Neft sazişi imzalanmayınca Vətənə dönmək yoxdur"*. O, bütün iradəsini bu səmtə yönəltdi, nəhəng enerji şirkətlərinin rəhbərləri qarşısında diplomatik fəndləri və iqtisadi taktikası ilə oyun qaydalarını dəyişdirərək onları şərtlərindən geri çəkilməyə vadar edirdi: *"Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik"*.

Hyuston danışıqlarının səmərə verməməsinə baxmayaraq, Ulu Öndər və cənab İlham Əliyev nikbin idi, onlar ədalətli və Azərbaycanın milli mənafeyinə uyğun sazişin imzalanması yolunda ruhdan düşmədilər. Vaşinqtonda aparılan çətin və gərgin danışıqlar raundunda ARDNŞ-in yeni birinci vitse-prezidenti dünyada ilk dəfə dənizdə neft hasil etmiş Azərbaycanın zəngin enerji ənənələrini və dünya neft sənayesindəki möhtəşəm yerini xatırladaraq Xəzərin statusu barədə şərtlərin bəhanə xarakteri daşıdığını sübut etdi, tutarlı arqumentləri ilə Qərb şirkətlərinin ədalətsiz şərtlərini saziş mətnindən çıxartdı. Beləliklə, Ümummilli Liderin beynəlxalq nüfuzu və şəxsi münasibətləri, İlham Əliyevin isə mükəmməl enerji diplomatiyası sayəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Onlar sübut etdilər ki, dünyanın neft mərkəzi olan Bakı müasir neft erasının da ən etibarlı ünvanı, Xəzər dənizində beynəlxalq əməkdaşlığın hüquqi təminatçısıdır.

Ulu Öndərin və İlham Əliyevin müəllifi olduqları yeni neft strategiyası Azərbaycana iri investisiyaların cəlb edilməsi və enerjinin dünya bazarlarına nəqli sayəsində respublikamızın iqtisadi inkişafının möhkəm bünövrəsinə çevrildi, azad iqtisadi sistem qurulmasını, ölkəmizin dünya iqtisadiyyatına dinamik inteqrasiyasını və güclü inkişaf bumunu təmin etdi. İlham Əliyevin yetkin siyasi lider kimi sədası beynəlxalq tribunalardan gəlir, fəal və məqsədyönlü millət vəkili kimi qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları müxtəlif beynəlxalq platformalarda ifşa olunur, Ermənistan-Azərbaycan münaqişəsi barədə obyektiv rəy formalaşmasında dönüş yaranmışdı. O, ABŞ-də nəhəng siyasi platformalara dəvət olunur, dəyərli və dərin analitik düşüncəsinə xüsusi önəm verilirdi. 2002-ci il oktyabrın 21-dən 24-dək Vaşinqtonda işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlər böyük əks-səda doğurmuşdu. İlham Əliyev səfər müddətində ABŞ-nin vitse-prezidenti Riçard Çeyni, energetika naziri Spenser Abraham, Dövlət katibinin birinci müavini Riçard Armitac, ABŞ Prezidentinin Xəzər diplomatiyası üzrə müşaviri Stiven Mənn, Birləşmiş Ştatların tanınmış siyasi xadimləri, o cümlədən sabiq Dövlət katibi Madlen Olbrayt, Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Maliyyə Korporasiyasının rəhbərləri və digər mötəbər şəxslərlə görüşlər keçirərək siyasi istedadı ilə qarşısındakıların heyrətamiz marağına səbəb olmuşdu.

Onun Amerika-Azərbaycan Ticarət Palatası, Kembric Energetika Tədqiqatları Assosiasiyası tərəfindən təşkil edilmiş tədbirlərdəki çıxışları da Amerika və dünya miqyasında mühüm siyasi hadisə kimi qarşılandı. ABŞ-nin keçmiş müdafiə naziri Uilyam Perri qeyd edirdi ki, İlham Əliyevin nitqi böyük siyasətə hazır olan diplomatın fikirləri təsirini bağışlayır. ABŞ-nin keçmiş Dövlət katibi Corc Şults isə vurğulayırdı ki, Azərbaycan yaxın gələcəkdə dünyanın ən inkişaf etmiş ölkələri ilə bir cərgədə duracaq.

İlham Əliyevin ABŞ-nin məşhur universitetlərindən olan Cons Hopkins Universitetindəki çıxışı gənc bir siyasətçinin müdrik baxışlarını, təsəvvüredilməz zəkasını nümayiş etdirdi. O, Azərbaycan həqiqətlərini ən xırda detallarına qədər şərh edərək erməni təcavüzkarlığının simasını ifşa etdi, dünya erməni lobbisinin Amerika və müxtəlif ölkələrdəki çirkin oyunlarına qətiyyətlə lazımi cavab veriləcəyindən xəbərdar etdi. Həmin görüş çərçivəsində ünvanlanan çoxsaylı sualları cavablandıran İlham Əliyev Qarabağ münaqişəsi ilə bağlı qəti mövqeyini bəyan edərək Azərbaycanın mövcud vəziyyətlə heç vaxt razılaşmayacağını və öz ərazilərini azad etmək üçün digər mümkün imkanlardan istifadə edəcəyini xatırlatdı. ABŞ-dəki erməni icmasının nümayəndəsinin təlimatlandırdığı Vartan Barseqyanın sualına isə İlham Əliyevin cavabı sərt şillə təsiri bağışlamışdı. Barseqyanın müstəqil respublika kimi təqdim etdiyi Dağlıq Qarabağdakı ermənilərə qarşı



Azərbaycanın antiterror əməliyyatları aparmaq niyyətlərinə İlham Əliyevin cavabı belə olmuşdu: *"Siz mövcud olmayan qurumu təmsil edirsiniz. Dağlıq Qarabağ adında respublika yoxdur. Azərbaycanın bu ərazisini işğal edən banda var. Oradakı hakimiyyət hərbi rejimdir. Onların hamısı cinayət törətmiş şəxslərdir, terror hadisələri törətmiş adamlardır. Bu adamlar Ermənistanla birlikdə Azərbaycan ərazisinin bir hissəsini işğal etmişlər. Bir də deməliyəm ki, siz heç kimi təmsil etmirsiniz. Bəlkə özünüz özünüzü təmsil edirsiniz. Bəlkə də erməni lobbisini, erməni icmasını təmsil edirsiniz. Amma Dağlıq Qarabağı yox. Bu adda ölkə yoxdur"*.

2002-ci ildə Vaşinqtonda mötəbər kürsülərin birindən verilən bu ultimatum hələ Milli Məclisin deputatı, ARDNŞ-in birinci vitse-prezidentinin xəbərdarlığı idi. O, dünyanın ən güclü ölkəsinin paytaxtından Ermənistana və havadarlarına 18 il sonra alacağı qisasın anonsunu verirdi. İlham Əliyev Qarabağı işğal edən bandanın, cinayətkar və terrorçu rejimin, cinayət törətmiş şəxslərin cəzalandırılacağı, antiterror əməliyyatı ilə köklərinin kəsiləcəyi günün gələcəyinə əmin idi. Çünki o tarixi özü seçəcəkdi.

İlham Əliyev 2003-cü ildə mükəmməl dövlət kadrı və dünya miqyasında planetar siyasi keyfiyyətləri ilə seçilən şəxs kimi xatırlanırdı. O həm də Azərbaycanın və Cənubi Qafqazın nəhəng siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasında ikinci şəxs kimi siyasi proseslərin mərkəzində dayanırdı. YAP-ın 1999-cu ildə keçirilən I qurultayında partiya Sədrinin müavini, 2001-ci ildə keçirilən II qurultayında isə birinci müavini seçilməklə İlham Əliyev təcrübəli siyasətçi, nüfuzlu ictimai xadim kimi prezidentliyə gedən yoluna dərin zəmin hazırlayırdı. Tale elə gətirdi ki, həmin dövrdə Ulu Öndərin səhhətində yaranan problemlər dövlət kürsüsünün ona əmanət edilməsini labüdləşdirdi. Sözsüz ki, Heydər Əliyevin müəyyənləşdirdiyi möhtəşəm siyasi xəttə sahib çıxacaq, bu kursu irəli apara biləcək yeganə seçim İlham Əliyev idi, Azərbaycanda onun alternativi yox idi.

2003-cü ildə keçirilən prezident seçkilərində müdrik Azərbaycan xalqı cənab İlham Əliyevə yekdilliklə səs verdi və bu seçim bir daha Heydər Əliyev yolunun alternativinin olmadığını təsdiqlədi. İlham Əliyev 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində Azərbaycan Konstitusiyasına və müqəddəs "Qurani-Kərim"ə and içərək ali məqamda ali məramlarını bəyan etdi: *"Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir. Azərbaycan heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir"*.

O, Heydər Əliyevin dövlətçilik mirasını çiyinlərinə götürərək yeni demokratik hüquqi islahatlara start verdi. Peşəkar iqtisadçı kimi iqtisadi idarəetmə kursunu yeni çağırışlara əsaslandırmaqla iqtisadiyyatı büsbütün keyfiyyət mərhələsinə transformasiya etməyi bacardı. Müəllifi olduğu regionların sosial-iqtisadi inkişaf modeli əsaslı infrastruktur intibahı olmaqla paytaxtla bölgələr arasında kommunikativ bərabərliyi təmin etdi. Birnömrəli qayəsi isə erməni tapdağında olan torpaqlarımızın azad edilməsi üçün güclü ordu yaratmaq idi. "Güclü iqtisadiyyat-güclü dövlət" devizinə söykənərək addım-addım Zəfər Ordusunu qurdu, həmçinin beynəlxalq siyasi və iqtisadi münasibətlər sistemində Azərbaycanın etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi qüdrətini artırdı, dünya birliyində qətiyyətli simasını formalaşdırdı.

Prezident İlham Əliyevin unikal iqtisadi zəkası Azərbaycanın qlobal dünyaya inteqrasiyasını sürətləndirməklə dayanıqlı və rəqabətli ölkə statusunu təmin etdi. 2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu istismara verildi. 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin önəmli hissəsi olan TANAP-ın açılışı baş tutdu, 2020-ci il dekabrın 31-də Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəməri istifadəyə verildi.

2018-ci ilin avqustunda Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısı çərçivəsində Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın imzalanması Azərbaycanın dövlət başçısının müəyyənləşdirdiyi xarici siyasətin növbəti nailiyyəti kimi tarixə həkk olundu. Beş Xəzəryanı ölkənin bərabərhüquqlu maraqlarını təmin edən razılaşmanın qüvvəyə minməsindən sonra regionda yeni siyasi-iqtisadi əməkdaşlıq formatı daha da şaxələndi, yeni transkommunikasiya bağlantıları üçün əlverişli zəmin yarandı. Regional enerji xəritəsinin yeni bloku olan Trans-Xəzər boru kəmərinin reallaşması üçün sağlam mühit təsis olundu. Müasir qlobal nəqliyyat coğrafiyasının ən rentabelli və sərfəli xəttinə çevrilən Orta dəhlizin gerçəkləşməsində də həmin konvensiyanın mühüm əhəmiyyəti var. Azərbaycan hazırda Orta dəhlizin ən strateji halqası olan Zəngəzur dəhlizi quruculuğunu yekunlaşdırmaqdadır ki, bu nəhəng nəqliyyat arteriyası Zəngəzuru "Şərq-Qərb" kommunikasiyasının ən hərəkətverici və axıcı bölgəsinə çevirəcək.

Cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün ötən illər ərzində yorulmadan çalışdı, ATƏT-in Minsk qrupunun, digər beynəlxalq missiyanın Ermənistanın mənafeyinə xidmət edən güzəşt təkliflərini əlinin tərsi ilə geri çevirdi, heç vaxt prinsipial mövqeyindən geri dönməyəcəyini və hərbi yolla da olsa, ərazi bütövlüyünün təmin ediləcəyini bildirdi. Azərbaycanın artan iqtisadi qüdrəti müdafiə büdcəsini də böyütdü, 2003-cü ildə müdafiə büdcəsi 170 milyon dollar təşkil edirdisə, 2020-ci ildə bu rəqəm 14 dəfə artaraq 2,3 milyard dollara çatdırıldı. Bu, Zəfər Ordusunun qarşıya qoyulan ali tapşırığı ən layiqli səviyyədə başa çatdırması üçün mühüm faktorlardan biri idi.

Ali Baş Komandan Ermənistanda, hətta Qərbdə yaranmış "Azərbaycanın hərbi güclə torpaqlarını azad etməsi mümkünsüzdür" mifini darmadağın edərək 44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Dünyanın ən ali institutunun kabinetində paraflanmış 30 ilə yaxın icra olunmayan kollegial kağız parçasının hüquqi legitimliyini təkbaşına gerçəkləşdirdi.

Həmin dövrdə Azərbaycan lideri Ermənistanla yalnız hərbi cəbhədə deyil, həm də informasiya, siyasi-diplomatik müstəvidə mübarizə aparırdı və hər birində haqlı və ədalətli olduğunu sübut edirdi. Onun prosesləri zərgər dəqiqliyi ilə incələmək istedadı və qeyri-adi təmkinlə qərarlar vermək dəyanəti, "dəmir məntiq"i həmişə haqlı olduğunu sübuta yetirirdi. Ali Sərkərdə İlham Əliyev və yenilməz ordumuz tarixi Zəfər qazanmaqla Azərbaycanı əbədi xoşbəxtliyinə qovuşdurdu.

Azərbaycanın siyasi lideri 2002-ci ildə Vaşinqtonda erməni lobbisinə xatırlatdığı qətiyyətli bəyanatını son akkorduna qədər icra edərək Xankəndidəki qanunsuz hərbi rejimin varlığına son qoydu, cinayət törətmiş şəxsləri həbs edərək layiqli şəkildə cəzalandırdı, Azərbaycanın dövlət suverenliyini tam bərpa etməklə missiyasını başa çatdırdı. O, Azərbaycan xalqının milli yaddaşında dövlətin vahidliyini və milli ləyaqətini bərpa edən lider kimi xarakterizə olunmaqdadır.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında hazırda xalqımız ən qürurlu və rifahlı dövrünü yaşayır. Onun yaratdığı yeni nümunəvi unikal iqtisadi model sayəsində ölkəmiz ötən 21 ildə misilsiz nailiyyətlər əldə edib, Azərbaycan iqtisadiyyatı ən yüksək inkişaf mərhələsinə ucalıb.

2003-2023-cü illərdə ümumi daxili məhsul (ÜDM) 14,8 dəfə artaraq 134 milyard manata çatdı. Dövlət büdcəsinin gəlirləri 25,2 dəfə artaraq 1,2 milyard manatdan 36 milyard manata yüksəldi. Dövlət büdcəsinin xərcləri 27 dəfə artaraq 1,3 milyard manatdan 38 milyard manata çatdı. Hərbi-müdafiə xərcləri 2003-cü ildə 150 milyon manat idisə, 2023-cü ildə 7 milyard manata yaxınlaşdı. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 50 dəfəyə yaxın artaraq 72 milyard ABŞ dollarına çatıb. Ölkəmizin xarici ticarət əlaqələri qurduğu dövlətlərin sayı 124-dən 188-dək artıb.

2003-2023-cü illər ərzində ölkə iqtisadiyyatına yatırılan investisiyaların məbləği 320 milyard ABŞ dollarına yaxınlaşıb. 2003-2023-cü illərdə 2,5 milyon iş yeri yaradılıb. Sahibkarlara 2,5 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. 2003-2023-cü illər ərzində orta aylıq əməkhaqqı 13 dəfə artaraq 77 manatdan 940 manata çatdırılıb. Bu illər ərzində minimum əməkhaqqı 38 dəfə artaraq 9 manatdan 345 manata yüksəlib. Orta aylıq pensiyanın məbləği 18 dəfə artaraq 23,8 manatdan 435 manata çatıb. Minimum pensiyanın məbləği bu illər ərzində 14 dəfə artaraq 20 manatdan 280 manata çatdırılıb.

Dünyanın ən nəhəng maliyyə institutlarının dərc etdiyi beynəlxalq hesabatlara əsasən, Azərbaycan yuxarı ortagəlirli ölkələr qrupuna daxil olub, "orta insan inkişafı" statusuna malik ölkələr qrupundan "yüksək insan inkişafı" statusuna malik ölkələr qrupuna keçib.

*2024-cü il fevralın 7-də öz ərazi bütövlüyünü və dövlət suverenliyini, konstitusiya quruluşunu tam bərpa edən Azərbaycanda ilk dəfə keçirilən prezident seçkilərində növbəti dəfə ali dövlət məqamına yüksələn cənab İlham Əliyev demokratik islahatların və iqtisadi idarəetmənin yeni keyfiyyət arxitekturasını qurmaqdadır. Onun postmünaqişə dövründə müasir sülh quruculuğu, regional və beynəlxalq əməkdaşlıq çağırışları və qlobal həmrəylik ideyası yeni iqtisadi-geosiyasi landşaftı formalaşdırmaqdadır. Bu, Prezident İlham Əliyevin mötəbərliyinin, möhtərəmliyinin təkrarolunmazlığıdır.*

**Ramid NAMAZOV,**
***Milli Məclisin deputatı***

# Hər bir azərbaycanlının Prezidenti

## İlham Əliyevin 5-ci sosial paketi 3 milyon insanı əhatə edəcək

**Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açıb.**

Dövlət başçısının dediyi kimi, Azərbaycan sosial dövlətdir, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır. Bu sözlər Prezident İlham Əliyevin tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən sosial islahatlarda bir daha aydın təsdiqini tapır.

### 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi

Azərbaycan Prezidentinin imzaladığı fərman və sərəncamlarla 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılıb. Nəticədə minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişləri 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləği 2,7 dəfə, minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 2 dəfəyədək, median əməkhaqqı 2,2 dəfə, əməkhaqqı fondu 3 dəfə artıb, 10 yeni sosial ödəniş növü təsis edilib.

Bu dövrdə əmək müqavilələrinin sayı 609 min və ya 48 faiz artaraq 1,9 milyona çatıb. Müsbət məqamdır ki, özəl sektorda əmək müqavilələrinin sayında 2 dəfə artım özünü göstərib.

Sosial dövlətin mühüm cəhətlərindən biri olaraq dövlət büdcəsində sosialyönlü xərclər 2021-ci ildəki 10,3 mlrd. manatdan 2024-cü il üçün 15,5 mlrd. manata çatıb və 2025-ci ilin büdcə layihəsində 16,9 mlrd. manat nəzərdə tutulur. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 mlrd. manat və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha göstərir.

### İlham Əliyevdən növbəti sosial dəstək

Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.

Belə ki, sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən isə əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq.

Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunur.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək.

Qeyd etdiyimiz kimi, 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək.

Həmçinin sərəncamla Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək. Beləliklə, həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Yeni sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi gələn ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.



"Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"

**İlham ƏLİYEV**













### Özünüməşğulluq proqramı çərçivəsində 2018-2024-cü illərdə 635 min nəfər işlə təmin olunub

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri sosial rifahda mühüm önəm kəsb edən məşğulluğun təminatıdır. Ona görə də çoxsaylı yeni iş yerləri açılmaqla, aktiv məşğulluq proqramlarının əhatə dairəsi ildən-ilə əhəmiyyətli dərəcədə genişləndirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 2018-2024-cü ilin 11 ayı da daxil olmaqla 635 min nəfəri işlə təmin edib. Gələn il üçün işədüzəltmə hədəfi isə 130 min nəfər təşkil edir.

Dövlət başçısının göstərişi ilə icra olunan özünüməşğulluq proqramına cəlb olunanların illik sayı proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 15 dəfəyədək artıb. Bu proqram çərçivəsində xeyli sayda işsiz və işaxtaran şəxs üçün kiçik təsərrüfatlar qurulub və onlar üçün kiçik biznesə çıxış imkanları yaradılıb. Onu da qeyd edək ki, özünüməşğulluq proqramına cəlb olunanların sayı gələn il 100 mini ötəcək.

### Əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsait 2,1 dəfə artıb

Prezident İlham Əliyevin həssas əhali qruplarına xüsusi qayğısı əlilliyi olan şəxsləri də əhatə edir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 mlrd. manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 mlrd. manat təşkil edirdisə, hazırda 2,5 mlrd. manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılıb.

Son illər ölkədə müasir reabilitasiya sisteminin qurulması, reabilitasiya sahəsində biopsixososial modelə əsaslanan xidmət spektrinin yeni istiqamətlər üzrə xeyli genişlənməsi də təmin edilib. Ümumilikdə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayı 7 dəfədən çox artıb. Təkcə bu ilin 11 ayında həmin mərkəzlərdə 113 min şəxsə xidmət göstərilib.

### Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 16 min mənzil və fərdi ev təqdim edilib

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlarla 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır.

*Ardı 13-cü səh.*

# Hər bir azərbaycanlının Prezidenti

## İlham Əliyevin 5-ci sosial paketi 3 milyon insanı əhatə edəcək



*Əvvəli 12-ci səh.*

Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram daim genişlənir, postmüharibə dövründə isə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 min, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib. Həmçinin 44 günlük Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567, ümumən ötən dövrdə 7,7 min avtomobil təqdim edilib və bu istiqamətdə tədbirlər də davam edəcək.

### Şəhid ailəsi üzvləri və müharibə iştirakçıları olan 24,8 min şəxs aktiv məşğulluq proqramlarına cəlb edilib

Eyni zamanda sosial dəstək tədbirləri çərçivəsində onların məşğulluğuna dəstək işləri də aparılır. Postmüharibə dövründə Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid ailəsi üzvləri və müharibə iştirakçıları olan 24,8 min şəxs aktiv məşğulluq proqramlarına cəlb edilib. Onlardan 12,1 min nəfəri üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları yaradılıb, digərləri isə münasib işlə təmin edilib. Həmçinin 1033 şəxs peşə hazırlığına cəlb olunub.

Eyni zamanda həmin sosial dəstək paketi üzrə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,3 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Həmin aylıq sosial ödənişlərin də orta hesabla 2 dəfəyədək artırılması təmin edilib. 44 günlük Vətən müharibəsindən sonra həmçinin şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 68,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

Müharibə ilə əlaqədar əlilliyi olan 2249 şəxs 61,7 min reabilitasiya vasitəsi, o cümlədən 490 şəxs 600 ədəd yüksəktexnologiyalı müasir protezlə təmin olunub. Ümumilikdə, postmüharibə dövründə nazirliyin şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra etdiyi sosial dəstək paketi 130 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 366 min xidmət göstərilib.

### DOST mərkəzlərində ötən dövrdə 3 milyon 150 min vətəndaşa xidmət göstərilib

Dövlət başçısının uğurlu sosial islahatlar proqramının mühüm nailiyyətlərindən biri də dövlət sosial xidmətlər sistemində DOST konsepsiyasının tətbiqidir. 2019-cu il mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyi və ilk DOST Mərkəzinin açılışı olub.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası 15 istiqamət üzrə 160 sosial xidmətin əhaliyə vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan yaradıb. İndiyədək Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində isə Qarabağ Regional DOST Mərkəzinin filialı istifadəyə verilib. DOST mərkəzlərində ötən dövrdə 3 milyon 150 min vətəndaşa xidmət göstərilib və bu xidmətlərdən vətəndaş məmnunluğu 98,4 faizdir.

DOST konsepsiyası 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Onlardan 12-si "Good practice awards of Europe", yəni "Avropa üçün yaxşı təcrübə mükafatı"dır.

DOST təcrübəsini tətbiq etməyə maraq göstərən ölkələrin sayı daim artır və artıq Özbəkistan bu təcrübəni tətbiq edir, Moldova da bu sahədə pilot işlər aparır. Serbiya və Rumıniyada isə DOST mexanizmi əsasında elektronlaşma həyata keçirilir. Beləliklə, DOST artıq dünyada Azərbaycanın yeni brendi kimi tanınır.

Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Ümumilikdə 17 yeni Regional DOST mərkəzi və ətraf rayonlar üzrə onların ümumilikdə 55 filialı yaradılacaq və bütün ölkə DOST xidmətləri ilə əhatə olunacaq.

Əhaliyə dövlət xidmətlərinin vətəndaş məmnunluğuna yönəlik yüksək keyfiyyət və şəffaflıq səviyyəsinə çatdırılmasında, xidmətlərin vətəndaşlara əlçatanlığının və onlardan rahat istifadənin, nəticə etibarilə vətəndaş məmnunluğunun təmin edilməsində, ümumən ölkədə innovativ inkişafa nail olunmasında İKT-nin geniş tətbiqi ən sərrast və effektiv vasitələrdən biridir.

### 160 xidmətin 90 faizindən çoxu elektron platformada təqdim edilir

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, son illər əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində e-texnologiyaların tətbiqi geniş vüsət almaqdadır. 2019-cu ilin əvvəlindən ölkəmizdə ilk proaktiv xidmət kimi, pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib. Nəticədə pensiya hüququ yaranmış şəxsə özü müraciət etmədən və sənəd təqdim olunmadan, məmur-vətəndaş təması yaranmadan pensiya təyin edilir və elektron qaydada ona bu barədə məlumat verilir. Ümumilikdə, 2018-2024-cü illərdə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində geniş elektronlaşma proqramı nəticəsində bu gün nazirliyin 160 xidmətindən 145-i və ya 90 faizdən çoxu elektron platformada təqdim edilir. 50-dən çox proaktiv xidmət, "e-sosial" portalı, "Əmək və Məşğulluq" altsistemi yaradılıb.

Hazırda nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, bu ilin 11 ayında nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 623 milyon olub. 2019-cu ilin əvvəlindən 830 mindən çox proaktiv sosial ödəniş təyinatı aparılıb.

Bütün qeyd edilənlər ölkədə sosial inkişafın davamlı xarakter aldığını, Azərbaycanın sosial dövlət olmasının sosial uğurlarda öz təcəssümünü tapdığını göstərir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*















# Sözü və əməli bir olan Lider

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər intibah, inkişaf və tərəqqi ilə səciyyələnir. Belə ki, genişmiqyaslı siyasət, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan ötən illər ərzində tarixi və möhtəşəm uğurlara imza atıb. Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müddətdə bütün sahələr inkişaf edib, xalqa verilən vədlər layiqincə yerinə yetirilib. Ölkəmizdə sabitliyin təminatçısı xalq-iqtidar birliyi, Liderin xalqın maraqlarına, rifahına və mənafeyinə əsaslanan siyasəti, xalqın isə öz Liderinə qətiyyətli inamıdır.

Dövlət başçısının yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edib. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınıb. Azərbaycanın təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində qorunub.



2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkisi kimi yazıldı. Azərbaycan müstəqillik qazandıqdan sonra prezident seçkiləri ilk dəfə ölkəmizin işğaldan azad edilmiş hər bir şəhər, kənd və qəsəbəsində keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Bu hadisə hər bir azərbaycanlıda qürur hissi yaratdı. Prezident seçkilərində seçicilərin 92 faizindən çoxu cənab İlham Əliyevə dəstək verməklə müstəqil Azərbaycan dövlətinin xoşbəxt gələcəyinə səs vermiş oldu. Azərbaycan xalqı cənab İlham Əliyevə hər zaman inanır.

Azərbaycanda davamlı olaraq Bakı Beynəlxalq Humanitar Forumunun, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, UNESCO-nun xüsusi sessiyalarının və onlarca digər əhəmiyyətli tədbirlərin keçirilməsi nəticəsində Bakı qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevrilib. Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etməkdən şərəf duydu. Müddətin bir ildən də az olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. COP29-a 80-dən çox dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçı qatıldı. Tədbirdə vacib qərarlar qəbul edildi. Belə ki, Azərbaycanın COP29 sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan edib. BMT-nin İqlim Sammiti üçün COP29 sədrliyinin əsas prioriteti üzrə əldə olunan uğur əvvəlki 100 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi hədəfindən əhəmiyyətli dərəcədə artım deməkdir və qlobal investisiyaların yeni dalğasına təkan verəcək. Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir.



Prezident İlham Əliyevin sözü və əməli birdir. Hələ 21 il bundan əvvəl prezident seçilmiş İlham Əliyev doğma xalqına müraciət edərək söz vermişdi ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edəcək və ölkəmizin ərazi bütövlüyünü qoruyacaq. Və belə də oldu! Prezident İlham Əliyevin fəaliyyətinin ən parlaq səhifəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması təşkil edir. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən strateji kursun məntiqi nəticəsidir. Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması, beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, xalq-iqtidar birliyinin təmin olunması ərazi bütövlüyümüzün bərpasında, tarixi qələbənin qazanılmasında həlledici amil olub. Dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanı və Zəfər simvoluna çevrilən 44 günlük Vətən müharibəsi, Qarabağda erməni separatizminin kökünün kəsilməsi təkcə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpasını deyil, eyni zamanda həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların yaranmasına səbəb olub. Ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpası regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir.

Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional siyasi davranış modeli, analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Son dörd il ərzində siyasi partiyalar tərəfindən imzalanmış 9 birgə bəyanat və 3 müraciət uğurlu dialoqun və xalq-dövlət birliyinin təzahürüdür. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir.

Prezident İlham Əliyev sevincli günləri xalqı ilə bölüşür. Dövlət başçısı ad günlərində adətən sosial obyektlərin açılışında iştirak edib, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşüb. Bu cür əlamətdar günlərində Prezidentimiz şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, habelə yeni salınmış köçkün qəsəbələrində insanlarla bir yerdə olub. 50 illiyini məcburi köçkünlərlə bərabər Ağcabədidə qeyd edən Prezident 60 illiyini də Qarabağda - Şuşada keçirib. 2022-ci il 24 dekabr tarixdə cənab Prezident Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Sonuncu ad günündə isə Prezident İlham Əliyev Ağdama səfər edərək, bir sıra infrastruktur obyektlərinin açılışında iştirak edib və təməlini qoyub. Azərbaycan xalqı olaraq inanırıq ki, cənab İlham Əliyevin liderliyi ilə ölkəmiz bundan sonra da böyük nailiyyətlər qazanacaq!

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***

# Azərbaycanı zirvələrə yüksəldən Müzəffər Sərkərdə

2003-cü il oktyabrın 1-də Azərbaycan dövlətinin memarı və qurucusu, bütün ömrünü Azərbaycan xalqının rifahına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin xalqa tarixi müraciəti oldu. Ulu Öndər Heydər Əliyev prezident seçkilərində öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi. Ulu Öndər çıxışında Azərbaycan xalqını özünün siyasi varisi, dünya siyasətini gözəl bilən, yüksək intellektli, qətiyyətli və praqmatik düşüncəli bir şəxsiyyət olan İlham Əliyevə səs verməyə çağırdı. Ulu Öndər bütün fəaliyyəti dövründə xalqa arxalanırdı və xalq da Heydər Əliyevə inanırdı. Xalqımız çox gözəl bilirdi ki, dövlətimizi gələcək inkişafa, vətəndaşlarımızı rifaha aparan yol Heydər Əliyev yoludur və İlham Əliyev bu siyasi kursun, bu yolun ən layiqli davamçısı olacaq. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının böyük əksəriyyəti prezident seçkilərində İlham Əliyevə səs verdi. Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyevə, həm də böyük inama verilən səs idi. Xalqımız öz seçimində yanılmamışdı. Prezident İlham Əliyev Azərbaycan dövlətini zirvələrə qaldırdı, dünyada söz sahibinə malik bir dövlətə çevirdi.

Prezident seçildiyi ilk dövrdən etibarən cənab İlham Əliyev iqtisadiyyatda, səhiyyə, təhsil sistemində, ordu quruculuğunda böyük irəliləyişlərə nail oldu. Müasir, dünya standartlarına uyğun yüzlərlə xəstəxana, minlərlə məktəb inşa edildi. Gələcək nəsillərimizin sağlam böyüməsi, dünya idman arenalarında idmançılarımızın Azərbaycan bayrağını yüksəklərə qaldırması məqsədilə ölkəmizin demək olar ki, bütün regionlarında olimpiya idman kompleksləri inşa etdirildi.

Neft-qaz sənayesinin inkişafında cənab İlham Əliyev böyük layihələrə imza atdı. Trans-Anadolu, Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə başlanıldı. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamağa başladı. Xəzər dənizinin Azərbaycana aid olan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənilməsi və pay bölgüsü haqqında yeni saziş imzalandı. Bununla da Azərbaycan həm də dünya enerji sənayesində həlledici rol oynadı.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi də məhz cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Bu dəmir yolu xətti Asiya və Avropanı birləşdirən bir nəqliyyat dəhlizi oldu. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Asiyadan Avropaya və geriyə milyon tonlarla yük daşınır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına nail olundu. Prezident İlham Əliyevin həyata keçirdiyi neft-qaz strategiyası, eləcə də yeritdiyi məqsədyönlü, müdrik xarici siyasət nəticəsində Avropa İttifaqı və bir çox Avropa dövləti ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. Bu gün "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycanın təbii qazı Avropaya ixrac olunur.

Məhz Prezident İlham Əliyevin ölkə daxilində həyata keçirdiyi iqtisadi islahatlar, eləcə də güclü xarici siyasəti nəticəsində Azərbaycan bu gün tək regionda deyil, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilib.

Prezident İlham Əliyevin ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirdiyi böyük layihələr Azərbaycan iqtisadiyyatının daha da gücləndirilməsinə təkan verdi. Cənab İlham Əliyev dövlət büdcəsini neft asılılığından azad etdi. Qeyri-neft sektorundan gələn gəlirlərin həcmi hər il artmaqdadır. Azərbaycan dünyada çox az dövlətlərdəndir ki, gəlirləri xarici borcları dəfələrlə üstələyir. Prezident İlham Əliyevin müəllifi olduğu iqtisadi islahatların uğurla həyata keçirilməsinin nəticəsidir ki, Azərbaycan artıq kredit alan yox, digər dövlətlərə kredit verən dövlətə çevrilib. Azərbaycanda elə bir sahə yoxdur ki, inkişaf etdirilməsin.

Prezident seçildiyi ilk vaxtlardan cənab İlham Əliyev gənclərin sağlamlığına, təlim-tərbiyəsinə böyük diqqət ayırdı. Gənclərimiz sağlam olmaqla yanaşı, beynəlxalq yarışlarda Azərbaycan bayrağını qaldırıb, himnimizi səsləndirməklə ölkəmizi tanıtdırırlar. Dövlət başçımız hər zaman azərbaycanlı gənclərə inandığını bildirir. Bu gün gənc, istedadlı, demokratik düşüncəli gənclərimizə böyük etimad göstərilir, onlar dövlət idarəçiliyində, icra orqanları strukturlarında rəhbər vəzifələrə təyin olunurlar.



Dövlət başçısının ölkəmizdə yaratdığı müasir nəqliyyat, logistika infrastrukturu sayəsində Azərbaycan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat qovşağının mərkəzinə çevrilib. Şərqlə Qərbi birləşdirən bu orta nəqliyyat dəhlizinə bir çox Avropa və Asiya dövləti böyük maraq göstərir. Artıq bu marşrut xətlərilə yükdaşımaların həcmi hər il artmaqdadır. Bu da tranzit ölkə olaraq Azərbaycan iqtisadiyyatına böyük gəlir gətirməklə yanaşı, dövlətimizin beynəlxalq aləmdə nüfuzunu artırır.

Prezident İlham Əliyevin xalqımızın qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlər xüsusi vurğulanmalıdır. Cənab İlham Əliyev Azərbaycanda siyasi dialoqun əsasında milli həmrəyliyimizin təməlini yaratdı. Siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı ölkəmizdə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

Cənab İlham Əliyevin daxili və xarici siyasətinin prioriteti Azərbaycanın güclü dövlətə çevrilməsi və xalqın rifahının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. İlham Əliyevin yeritdiyi müstəqil, balanslaşdırılmış siyasət nəticəsində Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı.

Prezident seçildiyi 21 il ərzində cənab İlham Əliyev xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu gün dünyada belə dövlət başçısına çox az rast gəlmək olar. Cənab İlham Əliyevin rəhbərliyi sayəsində Azərbaycanın dünyada siyasi və iqtisadi imkanları möhkəmlənib. Bu gün regionda həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə reallaşdırılır. Otuz il işğal altında olan torpaqlarımız İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində işğaldan azad edildi. İlham Əliyev ərazi bütövlüyümüzü təmin etməklə yanaşı, xalqımızın kimliyini, qürurunu özünə qaytarmış oldu. Qloballaşan dünyada adət-ənənələrimizin qorunub saxlanılması, milli dəyərlərimizə sadiqlik, gənclərimizin vətənpərvərlik ruhunda yetişməsi İlham Əliyevin xalq qarşısında əvəzsiz xidmətlərinin nəticəsidir. Bu gün Azərbaycan İlham Əliyevin yaratdığı multikulturalizm, tolerantlıq dəyərləri ilə dünyada nümunə göstərilir. İlham Əliyev Azərbaycanda yaşayan bütün millətləri bir ideya, azərbaycançılıq ideyası ətrafında birləşdirib.

Cənab Prezident ölkənin iqtisadi potensialının artırılması yönündə həyata keçirdiyi siyasət nəticəsində ÜDM dəfələrlə artıb. İlham Əliyev Azərbaycanda neft kapitalının insan kapitalına çevrilməsinə dair strateji nəzəriyyə yaradıb. Bu gün Azərbaycanda qeyri-neft sektoru sürətlə inkişaf edir. Bu sektorda ixrac potensialımız hər gün artmaqdadır. Azərbaycan beynəlxalq aləmdə müstəqil siyasət yeridən strateji və etibarlı müttəfiq dövlət imicini qazanıb.

Ölkəmizin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi cənab İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzundan xəbər verir.

Prezident İlham Əliyev ölkədə ordu quruculuğuna xüsusi diqqət ayırır. Prezident hər zaman "Ermənistanla müharibəyə hazır olmalıyıq" fikrini səsləndirirdi. Ermənistan rəhbərliyi Azərbaycana qarşı yeni torpaq iddiaları irəli sürürdü. Bu səbəbdən İlham Əliyev Ali Baş Komandan olaraq Azərbaycanda güclü, müasir ordu yaratdı. Bu ordu özləri üçün "məğlubedilməz ordu" imici yaratmış erməni silahlı qüvvələrini 44 günə darmadağın etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında ordumuzun rəşadəti, xalqımızın birliyi nəticəsində 30 illik işğala son qoyuldu. Müharibədə böyük Zəfər qazandıq. Artıq Qarabağa Böyük qayıdış dövlət proqramı reallaşmaqdadır. Keçmiş məcburi köçkünlər öz yurdlarına mərhələli şəkildə dönməkdədirlər. Müharibə bitəndən bu günədək bərpa və yenidənqurma işlərinə büdcədən 12 milyard ABŞ dolları həcmində vəsait ayrılıb. Növbəti illərdə də kifayət qədər vəsait ayrılacaq.

2023-cü il aprelin 23-də Laçın istiqamətində nəzarət buraxılış məntəqəsi yaratmaqla Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. Lakin Ermənistan dövlətinə və Qarabağda qalan separatçılara məxsus silahlı dəstələr Azərbaycan hərbçilərinə və mülki şəxslərimizə qarşı terror aktları törətməkdə davam edirdilər. 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirdi. Ermənistana və separatçılara məxsus silahlı qüvvələr 24 saat belə Azərbaycan Ordusu qarşısında tab gətirə bilmədi və təslim olduqlarını bildirdilər. Bununla da Azərbaycan Qarabağda separatizmin kökünü birdəfəlik kəsdi, xunta rejiminin Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törətmiş rəhbərləri həbs edilərək Bakıya gətirildi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdi.

Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində beynəlxalq aləmdə ölkəmizin nüfuzu günbəgün artmaqdadır. Azərbaycanın müstəqil siyasət aparması, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşması, eləcə də öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ölkəmizə hörməti artırıb.

Dünya dövlətləri tərəfindən COP29-un sessiyasının 2024-cü ildə Azərbaycanda keçirilməsinə dair qərar qəbul edilməsi Azərbaycan dövlətinə böyük hörmətin və etimadın nümunəsidir. Azərbaycan COP-un yüksək səviyyədə keçirilməsi üçün qısa müddətdə bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Ölkəmizdə keçirilən COP29 konfransına 80 dövlət və hökumət başçısı, 76 mindən çox iştirakçı qatıldı. Bakıda dünya üçün əhəmiyyətli tarixi qərarlar qəbul edildi. İnkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşması elan edildi. Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. 2024-cü il 19 dekabr tarixdə Azərbaycan xarici siyasətində daha bir uğura imza atdı. Ölkəmiz İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv qəbul edildi. Bu ölkəmiz üçün qürurlu bir hadisədir. Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, islam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcək.

